# Borc



*Camal ZEYNALOĞLU*

(hekayə)

Ramazan ayının əvvəlləriydi. Birdən kəndə səs yayıldı ki, Rüstəm vəfat edib. Bu bəd xəbərə əvvəlcə inanmadım. Çünki yarım saat öncə, Rüstəm yanımdan ötüb evlərinə doğru getmişdi. Hətta, ayaqüstü onunla bir az söhbət də etmişdik. Amma ölümün insanı nə vaxt yaxalayacağı bəlli olmadığından bu xəbərin yalan olmadığına inandım. Hamı kimi mən də Rüstəmgilə getdim. Həyətdə çoxlu adam toplaşmışdı. Demək, ölüm xəbəri doğruymuş...

Rüstəmin 53 yaşı vardı. Əlli üçü yaş nədi ki. O, ixtisasca aqranomdı. Dörd övladı vardı - iki oğlan, iki qız. Qızlarını köçürtmüşdü. Oğlunun biri nişanlıydı, bu gün sabah toyu olacaqdı. Digər oğlu isə orta məktəbdə oxuyurdu. Xasiyyətcə sakit adamdı Rüstəm. O, Yaradanına son dərəcə qəlbən bağlı, Ona sadiq olanlardandı. Orucunu tutub, namazını qılırdı. Kimsəylə işi olmazdı. Kəndin xeyirində, şərində həmişə canı dildən iştirak edirdi. Bir sözlə, o, hay-haraya yarayan adamdı. Böyük oğlu Xasay atasının ani baş verən ölmünü həyətə toplaşan adamlara belə anladırdı: "Atam günorta evə gəldi. O, dedi ki, divanda uzanıb bir az istirahət edəcək. Axşam sərini qonşumuz Fərmanla sahəyə gedəcəklər. O, divana beş dəqiqə olar uzanmışdı ki, birdən onun xırıltısını eşitdim. Əvvəlcə, onu astadan çağırdım. Cavab verməyini görüb, atama yaxınlaşdım. Əlimlə ona toxundum, yavaşca, "ata, ata!" deyə onu silkələdim. Heç bir reaksiyanın olmadığını görüb ucadan: "Ata-a-a!.." deyə qışqırdım. Səsimə evdəkilər və qonşular gəldilər. Atam artıq keçinmişdi. O, indiyə qədər heç yerindən şikayət etməmişdi..."

Kənd camaatı Rüstəmi dəfn etmək üçün qəbiristanlığa gətirdilər. Cənazə namazı qılındıqdan sonra Molla Möhsün mərhumun qəbirə qoyulmasına göstəriş verdi. Mərhumun oğlu Xasay və onun dostu Ramiz qəbrin içinə düşdülər. Mollanın dediyi qaydayla meyidi əhləddə üzü qibləyə uzatdılar. Xasay mərhumun baş tərəfində, Ramiz isə ayaq tərəfində oturaraq Mollanın dediklərinə əməl edirdilər. Bu zaman Ramiz ucadan qışqırdı: "Meyidin ayaqları tərpəndi!.."

Hamı Ramizin qorxduğunu zənn edib onun qəbirdən çıxmasını bildirdilər. Onun yerinə qəbirə nisbətən yaşlı olan Sərdar kişi düşdü. O, əlini uzadıb meyidin ayaqlarından tutarkən kişi ucadan: "Bismillah! Ay camaat, Ramiz haqlıymış. Meyid diridir! Rüstəm ölməyib!" dedi. Hamı heyrət içindəydi...

Rüstəmin qəbirdə dirilməsi xəbəri ildırım sürətiylə hər tərəfə yayıldı. Həmin axşam kənd camaatı Rüstəmi səhərə qədər yatmağa qoymadılar. Ən maraqlısı traktorçu Əlişin verdiyi sualdı. O, Rüstəmdən soruşdu:

- Rüstəm, sən allah, de görüm, o tərəflərdə heç bizimkiləri də gördünmü?

- Əliş, sizinkilərdən ancaq atanı gördüm. Amma Sədyar əminin sifəti çox tutqundu, qaşqabaqlıydı, özü də pərişan haldaydı. Soruşdum ki, Sədyar əmi, niyə kefsiz görünürsüz? Dedi ki, Rüstəm, nankor övladlarımın ucbatından kefim yoxdur. Mən öləndən sonra övladlarım bircə dəfə də olsun, Ramazan ayında mənimçün iftar süfrəsi açmadılar... Cümə axşamları mənə "Yasin" oxutmadılar...

Rüstəmin bu sözündən sonra Əlişin sifəti pörtdü, utandığından başını aşağı dikdi. Və az sonra məyus, peşman halda məclisi tərk etdi. Bundan sonra Rüstəmə kimsə daha sual vermədi. Rüstəm adamlara dedi: "Mən səhər tezdən qonşu rayondakı Seyidlər kəndinə getməliyəm. Bir nəfərin ismarıcını atasına çatdırmalıyam. Arif adında cavan oğlandı. Bu yaxınlarda ürək çatışmamazlığından vəfat edib. Onun bir nəfərə borcu varmış. Mənə dedi ki, atama deyərsən borcumu ödəsin. Borclu olduğu adam da onların öz kəndindəndir. Çobandır. Arif dedi ki, daha it kimi hürməkdən bezimişəm..."

Bu məlumatın nə qədər doğru olub-olmadığını öyrənmək üçün daha iki nəfər kənd adamı da Rüstəmlə qonşu rayona getdilər. Onlar həmin kəndə gələrək ilk qarşılarına çıxan şəxsdən Ələkbər adlı kişinin bu kənddə yaşayıb-yaşamadığını və onun bu yaxınlarda Arif adında cavan övladının vəfat edib-etməməsini soruşdular. Həmin şəxs dedi ki, Ələkbər kişi bu, kənddə yaşayır və kəndin sayıb-seçilən imkanlı adamlarındandır. Bu yaxınlarda cavan oğlu Arif qəfildən dünyasını dəyişdi, rəhmətliyin qırxı hələ çıxmayıb. Və həmin adam Ələkbər kişinin evinin məktəbin yanında olduğunu söylədi.

Rüstəm yoldaşlarıyla birlikdə Ələkbərgilə gəldilər. Onun yetmişdən yuxarı yaşı olardı. Ələkbər kişi qəmgin, dərdli olduğundan tanımadığı müsafirləri çox soyuq qarşıladı. Rüstəm ünvana düzgün gəldiyini bir daha yəqin etmək üçün soruşdu:

- Bağışlayın, Ələkbər əmi sizsiniz?

- Bəli, mənəm. Necə bəyəm? - Ələkbər kişi etinasızcasına dilləndi.

- Oğlunuz Arifdən sizə xəbər gətirmişəm. - Rüstəm dedi.

- Başın xarab olub sənin! Yoxsa, ələ salmağa adam tapmadın? - Ələkbər kişi bərk əsəbiləşdi.

- Xeyr, xeyr, nə ələ salması... Mən doğrudan da oğlunuzdan sizə xəbər gətirmişəm.

- Sən nə danışdığını heç bilirsənmi?! Oğlum bir aydır ki, rəhmətə gedib. Onunçün burada yanıb-yaxılıram, sənsə mənimlə...

- Allah rəhmət eləsin. Bunu bilirəm, Arif vəfat edib. Dünən mən də ölmüşdüm...

- A bala, sən nə çərənləyirsən? Baxın, əlim-ayağım sizlərə dəyməmiş çıxıb gedin. Bəlanızı başqa yerdə axtarın. Əgər getməsəniz, əlimdən mütləq bir xəta çıxacaq! Dərdim özümə bəsdir... - Ələkbər kişi daha da coşdu.

- Ələkbər əmi, sizinlə zarafat etməyə gəlməmişəm buraya. Mənimlə gələn bu yoldaşlar da mənim dünən doğrudan da öldüyümü təsdiq edə bilərlər. - deyə Rüstəm üzünü onunla gələn həmkəndlilərinə tutdu.

Onlar Rüstəmin dediklərini bir ağızdan: "Ələkbər əmi, bu doğrudur. Rüstəm dünən ölmüşdü. Amma qəbirə qoyduğumuz zaman dirildi " - dedilər.

- Siz nə danışırsınız?! Bu ola bilməz! - Ələkbər kişi təəccüblə dilləndi.

- Orada hələ vaxtıma qaldığını söyləyib məni geri göndərdilər. - Rüstəm dedi. - Oğlunuz Arif dedi ki, onun borcu var, amma atam bilmir. Bu barədə ancaq anam bilir. Atama deyərsən ki, borcumu ödəsin, yoxsa burada it kimi hürməkdən bezmişəm.

- Bu ola bilməz! Oğlumun kimsəyə borcu yoxdu! - Ələkbər kişi yenə də əsəbiləşdi.

Və arvadını çağırdı:

- Səriyyə, buraya gəl! De görüm, Arifin kimə borcu vardı?

- Hə, vardı. Bu barədə bir neçə dəfə sənə demək istədim, ancaq ağzımı açmağa macal vermədin. - deyə Səriyyə arvad utancaq halda başını aşağı dikdi.

- Arifimin kimə borcu olub, ay arvad? - Ələkbər kişi arvadına qışqırdı.

- Çoban Vəliyə. - Səriyyə arvad sakitcə dilləndi.

Bundan sonra Ələkbər kişi Rüstəmə inandığı üçün onlara həyətdəki çardağın altında qoyulmuş stol arxasında əyləşməyi təklif etdi.

- Siz allah, məni bağışlayın. Əvvəlcə sizləri yaxşı qarşılamadım. Başımı itirmişəm. Arif belimi əydi mənim. Nə danışdığımı da bilmirəm. - deyə Ələkbər kişi qonaqlara üzrxahlıq etdi.

- Eybi yoxdur, dərdinizi anlayırıq. Cavan övlad itirmək valideyn üçün əlbəttə, çox ağırdır. Allah rəhmət eləsin və sizlərə də dözüm versin! - Rüstəm ev sahibinə səbr dilədi.

- Əvvəlcə deyin görüm, orucsunuz, yoxsa hələ? - Ələkbər yəqin olmaqdan ötrü qonaqlardan soruşdu.

- Biz orucuq, Ələkbər əmi. - Rüstəmgil bir ağızdan dilləndilər.

- Eləysə, arvad, qızlara de, axşama yaxşıca iftar süfrəsi hazırlasınlar! Sənsə təcili çoban Vəlini bizə çağır! - Ələkbər kişi arvadına göstəriş verdi.

Ev-eşikdən, həyət-bacadan, səliqə-sahmandan Ələkbər kişinin doğrudan da imkanlı olduğu görünürdü. Bir saat keçməmiş çoban Vəli də gəldi.

- Gəl, ay Vəli, gəl otur görək, - deyə Ələkbər kişi çoban Vəliyə yer göstərdi. - Hə, Vəli, indi de görüm, rəhmətlik Arifin sənə nə qədər borcu olub?

- Ələkbər kişi, oğlunuzun mənə üç min manat borcu vardı və o pulu ona halal etməmişəm. Qoyunlarımı aparıb bazarda satdı, ancaq pullarını vermədi. - Vəli dedi.

- Arvad, o sandıqdan pul boğçasını bura gətir! - Ələkbər kişi yenidən arvadı Səriyyəyə səsləndi.

Bir azdan Səriyyə arvad əlində böyük bir bağlamayla evdən çıxıb həyətə düşdü. O, əlindəkini gətirib ərinin qarşısına qoydu. Ələkbər kişi bağlamanı açaraq onu Vəlinin qabağına tərəf sürüşdürdü.

- Bu pulların hamısını da götürə bilərsən, Vəli. Sənə ana südü tək halal edirəm. Amma oğlumu bağışla.

- Mənə kimsənin artıq pulu lazım deyil. Mən burdan yalnız öz pulumu, halal üç min manatımı götürəcəyəm, - deyə Vəli qarşısına qoyulmuş puldan ancaq üç min manat sayıb götürdü və bağlamanı yenidən Ələkbər kişinin qarşısına itələdi.

Vəli ayağa qalxıb gedərkən:

- İndi haqqımı oğlunuza halal edirəm, Ələkbər kişi. Allah rəhmət eləsin! Məkanı cənnət olsun, inşallah! - dedi.

- Çox sağ ol, Vəli. Bilirsən ki, mən kimsəyə borclu olan kişilərdən deyiləm. Mən rəhmətliyin sənə borclu olduğunu bu saat öyrənmişəm, özü də bax, bu, qonaqlardan. Allah həmişə sənin köməyinə yetsin. İndi bilirəm ki, oğlumun ruhu rahat oldu. - Ələkbər kişi çoban Vəliyə dil-ağız etdi.

Çoban Vəli gedəndən sonra Ələkbər kişi üzünü Rüstəmə və digər qonaqlara tutub dedi:

- Allah sizdən də razı olsun ki, məni el içində böyük bir utancdan qurtardınız. Sizləri də buraxan deyiləm. Eşitdiyiniz kimi bu axşam iftar süfrəsində birlikdə olacağıq. Oğlum Arifin xatirinə məni qırmayın.

Rüstəmgil Ələkbər kişinin sözünü yerə salmadılar, axşam iftar süfrəsində iştirak etdilər...

Üç gündən sonra Əlişin böyük oğlu Rüstəmgilə gəlib:

- Rüstəm əmi, atam bu axşam iftar süfrəsi açır. Sizi də iftara dəvət edir - dedi.